# Dərslərimdə tariximizə məhəbbət hissi tərbiyə etməyə çalışıram



Bu gün müasir müəllim hərtərəfli bilik və bacarığa malik vətəndaş yetişdirmək istəyirsə özü də daim axtarışda olmalıdır. Fikrimcə, bu axtarışın mənbəyi keçmişimiz olmalıdır. Çünki ağac köksüz böyüyə bilmədiyi kimi, gənc nəsil də keçmişini öyrənmədən, bilmədən inkişaf edə bilməz. Məhz buna görə də hər bir dərsimdə çalışıram ki, xalqımızın milli-mənəvi sərvətlərinə, böyük sənətkarlarımıza, tarixi qəhrəmanlarımıza xüsusi yer ayırım.

Dərketmənin ən yüksək mərhələsi tətbiqetmədir. Şagirdlərdə əldə etdikləri bilikləri tətbiqetmə bacarığını inkişaf etdirmək, qabiliyyətlərini üzə çıxartmaq üçün müxtəlif interaktiv təlim metodlarından istifadə edirəm.

Azərbaycan dili fənnindən "Dil qaydaları" mövzusunda keçdiyim "açıq dərs"də bütün bunları əhatə etməyə çalışdım. "Açıq dərs"də təhsil ocağının direktoru, direktor müavinləri, metodistlər, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibləri və ibtidai sinif müəllimləri iştirak etdi.

Dərsin məqsədi şagirdləri sürətli düşünməyə, oxuduqları və həyatda gördükləri haqqında fikirlərini sərbəst ifadə etməyə istiqamətləndirmək, onlarda təfəkkürü, dinləmə qabiliyyətini, nitqi inkişaf etdirmək, dilçilik sahəsində əldə etdikləri bilikləri müxtəlif tapşırıqlar üzərində tətbiqetmə bacarığı formalaşdırmaq idi. Qruplarla iş şəklində olan dərsdə müzakirə, beyin həmləsi, anlayışın üzə çıxarılması, modelləşdirmə, şaxələndirmə üsullarından, informatika, həyat bilgisi, musiqi və riyaziyyat fənlərinə inteqrasiyadan istifadə etdim.

Öncə şagirdlərə monitorda ABŞ-ın və dünyanın məşhur ali təhsil müəssisələrindən biri olan Harvard Universitetinin binasını nümayiş etdirdim və bu haqda qısa məlumat verdim. Növbəti slaydla universitetin devizi və simvolunu nümayiş etdirdim, şagirdlərin motivasiyası üçün üç qızıl qaydanı oxudum:

1. Zaman uçur!

2. Oxumağın əzabı bir müddətlikdir, amma oxumamağın əzabı ömürlükdür!

3. İndi yatsan, yuxuda arzunu görəcəksən. Amma yatmasan, arzunu gerçəkləşdirəcəksən!

Şagirdlərə bildirirəm ki, fəaliyyətimizi 4 qrupla " Zəfər ", " Zəka " , "Zirvə" , "Ziya " ilə "Zaman uçur" devizi altında qurmağa çalışmalıyıq.

*Krossvordla iş.* Qruplara kağıza yazılmış sualları bükülü vəziyyətdə təqdim edirəm. Qrup üzvləri həyat bilgisinə aid verilən sualları sürətlə cavablandırırlar. Çəhrayı xanalardakı hərfləri yuxarıdan aşağıya oxuyaraq dərsin adını (dil qaydaları) almış olurlar.

Qruplara belə bir sualla müraciət edirəm: Bu günə qədər biz dilçilik elminin hansı bölmələri ilə tanış olmuşuq? Bu bölmələrdə hansı terminlərlə rastlaşmışıq?

Şagirdlərin fikirlərini dinlədikdən sonra onların tətbiqetmə bacarıqlarını yoxlamaq üçün tapşırıq verirəm. Tədqiqata başlamazdan əvvəl qruplar öz liderlərini seçirlər. Sağlam rəqabət hissi formalaşdırmaq məqsədilə fəaliyyətimiz yarış xarakterində təşkil olunur. İlk tapşırıq: hər qrupdan bir nəfər adı gizlədilmiş zərfi götürür, içindəki yarpaq şəkilli ifadə kartlarına yazılmış terminləri ada uyğun qutulara yığır. Bunun üçün onlara üzərinə "Fonetika", "Leksika", "Morfologiya" və "Köməkçi nitq hissələri" yazılmış qutular paylanır.

Qrupların təqdimatından sonra cavabların düzgünlüyünü göstərən slayd açılır, yoxlanılır və qiymətləndirilir.

Daha sonra fəaliyyətimiz bir neçə tədqiqat sualı ilə davam etdirilir. Tədqiqat zamanı ismin hallanması, morfoloji təhlili, mənsubiyyətə görə dəyişməsi, sifətləri quruluşuna görə qruplaşdırmaq, sayları mənaca növlərinə ayırma, cümlədə əvəzliyin sualını müəyyən etmək kimi tapşırıqlar verilir. Tapşırıqların düzgünlüyü hər dəfə slaydla yoxlanılır və qiymətləndirilir.

Qruplara aşağıdakı sualla müraciət edirəm!

- Hansı dahi şəxsiyyətlərimizi tanıyırsınız?

Şagirdlərin fikirləri dinlənildikdən sonra onların göz yaddaşlarını və şəxsiyyətləri simaca düzgün tanıdıqlarını yoxlamaq məqsədilə diqqətlərini monitora yönəldirəm. Şəxsiyyətlərin şəkilləri verilmiş slayd ani olaraq açılır və qapanır. Qruplar həmin şəxsiyyətlərin adını, soyadını və kim olduqlarını iş vərəqlərində qeyd etməlidirlər. Eyni zamanda bir sənətkarın da ifası səslənir. Bu səsin kimə aid olduğunu və ifa etdiyi mahnının müəllifini müəyyən etmək tapşırığı verilir.

Şəxsiyyətlər: Nizami Gəncəvi - böyük Azərbaycan şairi

Üzeyir Hacıbəyli - Şərqdə ilk opera bəstəkarı

Şəfiqə Axundova - Şərqdə ilk qadın bəstəkarı

Mirzə Fətəli Axundzadə - Şərqdə ilk dramaturq

Hacı Zeynalabdin Tağıyev - Xeyriyyəçi milyonçu

Molla Pənah Vaqif - Şair, dövlət xadimi

Şah İsmayıl Xətai - Səfəvi hökmdarı

Məmməd Əmin Rəsulzadə - Azərbaycan Xalq Cümhuriyyətinin banisi

Rəşid Behbudov - sənətkar, müğənni, xalq artisti

Səs - Böyük sənətkarımız Murtuza Məmmədov - Bülbülün səsi

Mahnı ( söz: N. Gəncəvi, mus.: Ü.Hacıbəyli) "Sənsiz" romansı

Cavablar yoxlanılır. Hər qrup özünün seçdiyi bir şəxsiyyət haqqında kiçik təqdimat edir. Nitqini daha aydın ifadə edən qrup yüksək balla qiymətləndirilir.

Nəticədə şagirdlər "Zaman uçur" şüarı altında birləşərək təqdim olunan tapşırıqları yerinə yetirmək üçün bir daha əməkdaşlıq bacarıqlarını nümayiş etdirmiş olurlar.

Şagirdlərin biliyinin qiymətləndirilməsi - vaxta qənaət etmə, tapşırığı yerinə yetirmə, fikrini ifadə etmə, əməkdaşlıq etmə, dinləmə meyarları üzrə aparıldı. Qalib olan qrup alqışlandı.

"Qələbə çalmaqda sizə nə kömək etdi?" sualını isə qalib qrupun üzvlərinin və dərsdə iştirak edən müəllimlərin fikirlərini "Qələbə düsturunda" qeyd etməklə cavablandırdıq. Onların fikirləri belə oldu: Qələbə çalmaqda bizə zəhmət, məsuliyyət, həqiqət, sevgi, axtarış, elm, narahatlıq, təbəssüm, təkrar kömək oldu.

Fikirlərin davamı olaraq qeyd edirəm ki, bütün bunlar ürəkdən olarsa uğur qaçılmazdır!

Dərsdə iştirak edən müəllimlərin həm iradları, həm rəyləri, həm də təklifləri mənim üçün çox vacib idi. Bunların içində isə ilk eşitmək istədyim onların iradları idi. Çünki bir müəllim kimi yerində olunan tənqidin tərifə bərabər olduğunu düşünürəm.

**Aybəniz TAĞIYEVA,**

*Şirvan şəhər 2 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi*